http://istiqlal.az/news/71314.html?fbclid=IwAR2Pr0pl1AepdTEaYmJZXH-wXEkrD8CNiiprsd0xvKucwmHS4foF3A08Ujs

# Sumqayıtlı dizayner: *“Kimi deyirdi ki, Amerika təşkilatına çox da inanma, yəqin nəsə niyyətləri var”*



**34 yaşlı, üç qardaşın tək bacısı Sevda Hüseynova çox kövrəkdir. Arzularından, planlarından danışanda göz yaşını saxlaya bilmir, qəhər onu boğur, sözləri boğazında düyünlənib qalır. Toparlanıb danışması vaxt alır.**

Sevda Sumqayıtda yaşayır, 10 ildir dizaynerliklə məşğuldur. Bu məqsədlə kurslara gedib, həm dərziliyi öyrənib, həm dizaynerliyi. Çox sayda eskizləri var, reallaşdırsa da, bəziləri zamanını gözləyir... Maddi səbəblərə görə indiyədək sərgisini keçirə bilməyib.

Bu müddətdə geyim sifarişləri götürməklə yanaşı məktəblərdə, uşaq bağçalarında bayramlar, tədbirlər üçün kostyumlar, çadırlar hazırlayıb, cehizlik süfrələr toxuyub, divanüstülər, çarpayı üçün örtüklər, prədələr, çantalar hazırlayıb.

O, müxtəlif ustalarla işləyib, pal-paltar tikməklə yanaşı xalça toxumağa qədər hər şeyə həvəs göstərib, sənətin sirlərini öyrənməyə çalışıb. Son iki-üç ildə öz işini qurmaq niyyətindədir. Bu məqsədlə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin - USAİD-in təlimlərində iştirak edib, təlimdən sonra ona bir neçə tikiş maşını və ləvazimatlar da verilib.

“Bir müddətdi öz işimi qurmaq istəyirdim. Amma atelye açmaq üçün çox şey lazımdı, birinci növbədəsə tikiş maşınları. Onlar çox baha idi. Adımı yazdırdım Sumqayıtda məşğulluq mərkəzinə. Düşündüm bəlkə faydası olar. Ordan dedilər ki, Amerika təşkilatından sizə yardım oluna bilər. Təşkilat bizə, seçilmiş yüzlərlə qadına bir müddət təlim keçdi, iş qurmağın yollarını öyrətdilər. Sonra ehtiyaclarımızla maraqlandılar. Mən dediyim kimi tikiş maşınları istəyirdim”.

Sevda Hüseynova istər evdəkilərin, istərsə də çevrəsindəki dost-tanışın ona maşın veriləcəyinə inanmadığını söyləyir.

**"Kimi deyirdi ki, Amerika təşkilatına çox da inanma, yəqin nəsə niyyətləri var, ağılsızlıq etmə, ehtiyatlı ol. Kimi deyirdi ki, yəqin onlara pul vermisən, yoxsa niyə sənə tikiş maşını versinlər. Yəni çox şey danışırdılar. Ancaq onların dediyinin əksinə bu ilin martında maşınları verdilər. Hətta həmin Amerika təşkilatından dedilər ki, ofis tut, iki aylıq icarə haqqını da verək. Amma koronavirusla bağlı sərt karantinə görə bütün işlərim pozuldu".**

Pandemiya hamı kimi ona da göz açmağa aman verməyib, bütün planlarını dondurmalı olub: "Yer kirayələmək istəyirdim, amma pandemiyada nə mənası. Avadanlığı ora qoyub boş-boşuna kirayə ödəyəcəkdim. Yazdan hər yerdə iş dayanıb. Evdə işləyirdim, uşaq bağçalarından sifarişlər alırdım. Artıq onlar da bağlanıb".

**Sevda Hüseynova şəraitlə ayaqlaşmağa, bəzi eskizlərini parça üzərində reallaşdırmağa, satışa çıxarmağa çalışır.**

"Satışa görə bir az çətinlik çəkirəm. Mağazalarda deyirlər ki, gərək malın çox olsun səni qəbul edək, 50 işlə olmur, azı 200-300 olmalıdır. Brend kimi topdan mal istəyirlər və əvəzində gəlirin 25 faizini onlara verməliyəm. Düzü, o qədər malı hazırlamaq olar. Sadəcə karantinə görə risk etmək istəmirəm. Geyim olsa gərək ölçüsünü vurum... Düzdü, kənardan mənə çox deyirlər ki, gərək qabağa getmək üçün risk edəsən, qorxmayasan. Mən hələ götür-qoy edirəm. Karantin bitsə çox iş görmək olar".

Lap əvvəldə Sevdanın həssas və kövrək olduğunu dedik. Bu haqda açıq danışmasa da, onu incidən ətrafdakıların işini, arzularını ciddi qəbul etməməsidir: "Onlar mənə ciddi yanaşmırlar".

Sevda bircə anasının ona güvəndiyini, dəstək verdiyini söyləyir. Elə söhbət boyu ana müdaxilə etməsə də, həvəslə qızını izləyir, bizə gah meyvə, gah çay gətirir, qonaqpərvər ev sahibi kimi hər şeyin yerli-yerində olmasına çalışır.

"Anam başa düşür məni. Amma evdə də iş alınmır. Bir də görürsən elə müştəri var, anam evə gəlməsini istəmir. Onu da başa düşürəm. Ancaq müştəriyə necə deyim gəlmə? Ya da deyir ki, Sevda, bəlkə bu günlük işin qalsın, mənə evdə kömək edəsən? Evdə işləmək alınmır. Xəstəlik də yayılıb. Yoxsa yer götürmək olardı. İstəyirəm elə yer olsun həm satış imkanı olsun, həm də atelye kimi, elə orda tikim. Azı 21 kv.metrlik yerim olsa bəsimdir, 2 kv.metrini kəsim stoluma ayıraram. Satış üçün orda ölçü çıxarmalıyam. Ən azı bir paltardan 5 ölçüdə hazırlamalıyam..."

O, Sumqayıtda yox, Bakıda, özü də şəhərin mərkəzində qurmaq istəyir işini. Bakıda daha tez-tez tədbirlərə, sərgilərə qatılacağını, orda daha çox müştərisi ola biləcəyini düşünür.

"Orda qeyri-adi geyimlər, fərqli aksesuarlar, fərqli işlər hazırlayıb göstərirsən. Onda səni daha çox, daha tez tanıyırlar".

Bir istəyini də dilə gətirir. "Uşaqları da işə götürərdim. Ehtiyacı olanları götürərdim özü də. İşləri olardı" – deyib yenidən səssizcə ağlayır. Onun yerinə sözlərdən çox göz yaşı danışır deyəsən.

Hələliksə pandemiya dövründə Sumqayıtdakı ata evi onun ofisidir. Darısqal mənzildə özünə bir künc qurub məhdud şərtlər daxilində işləyir.

"O gün bir müəllimə palto modeli gətirib. Məşhur firmalardan birinindir. Deyir ki, mağazada 450 manatdır, özüm də 250 manat maaş alıram, imkanım yoxdur. Ancaq iş yoldaşlarımdan da geri qalmaq istəmirəm. Soruşdu ki, bu modeli tikə bilərsən? Hesabladım ki, təxminən materialla bir yerdə 100 manata başa gələcək. Razılaşdım. Gələcəkdə üst geyimləri ilə də məşğul olmaq istəyərəm".

Getdiyi hər yerdə işindən danışır, hətta sürücülük kursundakı yoldaşlarını belə müştərisinə çevirir: "Sürücülük kursunda xanımlar avtomobillərinin nömrələrini naxışla işləməyimi istədilər. Bəziləri qadın köynəklərinə, süfrələrə naxış salmağımı xahiş etdi. Mən USAİD-dən petlə maşını istəmişdim axı. Həmin maşınla naxış da vurmaq olur. Naxışa çox tələbat var. Kimi adını yazdırmaq istəyir, kimi çantasına naxış vurdurur. Eləsi var yeni doğulmuş körpənin paltarlarına nəsə yazdırır. Məsələn, "Gəlişinlə həyatımızı gözəlləşdirdin", "Xoşbəxt ol" və s... Yəni iş var, amma daha böyük iş qurmaq üçün səstəlik bitməlidir".

Sevda Hüseynova ən böyük arzusunu sonda dilə gətirir: "Arzum odur ki, öz brendim olsun". Bunu deyib yenidən kövrəlir Sevda, söyləmədiyi sözlər çoxdur, amma sözsüz də bəzi şeylər aydındır.